





**Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının İşçi qrupu**

**Tel:** (+994 12) 498 25 28; (+994 12) 498 58 82; (+994 12) 493 12 37
**E-mail:** info@nmdk.gov.az
**Web:** www.nmdk.gov.az

Azərbaycan Respublikası Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə DÖVLƏT KOMİSSİYASI

# NARKOTİKLƏR BƏŞƏRİYYƏTİN GƏLƏCƏYİNƏ BÖYÜK TƏHLÜKƏ YARADIR!!!



Narkomaniya və Narkobiznes ilə mübarizə hər bir ölkənin, xalqın, millətin fiziki və şüuri sağlamlığı uğrunda aparılan mübarizədir.

*Heydər Əliyev*
*Ümummilli lider*

## NARKOMANLIQ NƏDİR:

Narkomanlıq - narkotik maddələrə aludəçilik sayəsində psixi və fiziki asılılıq yaradan xəstəlikdir. Narkotik maddələrdən cəmi bir iki dəfə istifadə edən adam onun iradəsiz quluna çevrilir. İnsan gücdən düşür, zəifləyir, üstəlikdə mənliyini, insanlığını itirir, öz yaxınlarının sevgisindən məhrum olur.

Narkomanlığın inkişaf etməsi və formalaşması iki əsas əlamətlə xarakterizə olunur:

**1) Psixi aslılıq**
**2) Fiziki aslılıq**

Psixi asılılıq - təkrar-təkrar müəyyən hissləri keçirmək və yaxud psixi diskomfortu aradan qaldırmaq üçün müntəzəm və ya dövri olaraq narkotik preparatların qəbulu xəstədə patoloji meyilliyin olmasıdır.

Fiziki asılılıq - narkotik vasitələrin xroniki qəbulu ilə əlaqədar olaraq insan orqanizminin bütün həyat fəaliyyəti proseslərinin xüsusi dəyişilmiş vəziyyətidir.

Narkotik alverçiləri gəncləri özlərinə hər bir üsulla cəlb edirlər, aldadırlar, müxtəlif vədlər verirlər, hədələyirlər və s. kələklərə əl atırlar ki, gənclər heç olmasa bircə dəfə narkotiklərin dadına baxsınlar.

Narkotiklərin "dadına baxanlar" narkotik alverçilərinin artıq toruna düşmüş olurlar. Narkotik alverçiləri mələk donu geymiş şeytandır! O gənclərin həyatını öz qazancı yolunda qurban verir!



## ƏZİZ DOSTUM YADINDA SAXLA!

İnsanın mənaviyyatını alçaldan, intellektual səviyyəsini heçə endirən pis vərdişlərdən uzaq olun!

Gəlin birlikdə tütünə, alkoqollu içkilərə, narkotiklərə, təsadüfi cinsi münasibətlərə "YOX" deyək və gələcəyimizi bu təhlükədən sığortalayıb, sağlam həyat quraq!!!

## ZƏRƏRLİ VƏRDİŞLƏRƏ "YOX" DEYİN!!!

## HAMI MÜTLƏQ BİLMƏLİDİR:

Müəllimlər və təlim-tərbiyə işçiləri şagirdlərin narkotik və digər maddələrdən istifadə etməsindən şübhələndikdə gecikmədən mütəxəssis - psixoloq və narkoloqu həmin şagirdlə anonim söhbətə dəvət etməlidir. Əgər şagird anonim müalicə almağa razılıq verirsə, digər şagirdlər onun nə səbəbdən məktəbə gəlmədiyini bilməməlidirlər.

Əgər dostlarınızdan, yaxınlarınızdan kimsə narkotikdən istifadəyə meyillidirsə, təsir altına düşübsə və ya artıq narkotik qəbul edirsə ona yardım əlinizi uzadın. Bunun üçün siz onu

- **səmimi söhbətə dəvət edin**
- **valideyinlərinə məlumat verin**
- **ona mənəvi dəstək olun narkotiklərdən**

istifadə edənlər arasında aşağıdakı xəstəliklərə yoluxma riski daha artıqdır.

- **Dəri zöhrəvi**
- **QİÇS, hepatitlərə yoluxma**
- **Psixi xəstəliklər**
- **İrsi xəstəliklərin yayılması**
- **Orqanizmin zəhərlənməsi**